YÜBİLEY

# Professor
# BALAMETOV ƏŞRƏF BALAMET OĞLU
(anadan olmasının 60 illiyinə)



2007-ci il yanvar ayının 27-də Elektroenergetika sahəsində görkəmli alim, texnika elmləri doktoru Beynelxalq Ekoenergetika Akademiyasının akademiki Əşrəf Balamet oğlu Balametovun anadan olmasının 60 illiyi tamam olur.

1965-ci ildə Bakı Energetika Texnikumunu fərqlənmə diplomu ilə, 1971-ci ildə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Energetika fakultəsini bitirmişdir. Əmək fəaliyyətinə 1971-ci ildə İ.Q. Yesman adına Azərbaycan elmi-tədqiqat Energetika institunda mühəndis vəzifəsindən başlamış, sonralar institutunda kiçik elmi işçi, böyük elmi işçi, şöbə müdiri, avtomatlaşdırılmış idarəetmə sistemləri üzrə direktor müavini vəzifələrində işləmişdir.

1980-cı ildə Moskvada Q.M.Krjijanovski adına ENİN-in ixtisaslaşdırılmış şurasında Mürəkkəb elektrik şəbəkələrində qərarlaşmış rejimlərin hesabat metodlarının effektivliyinin artırılması mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1994-cü ildə Rusiyanın Novosibirsk texniki universitetində “İfrat yüksək gərginlikli elektrik şəbəkələri rejimlərinin idarə modelləri və metodları mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1989-cu ildə onun təşəbbüsü ilə AzETEİ-də “Elektrik sistemlərinin qərarlaşmış rejimlərinin analizi bölməsi açılmış, sonralar 1993-cü ildə bölmə elmi-tədqiqat şöbəsinə və laboratoriyasına çevrilmişdir. Hazırda laboratoriya rəhbəri vəzifəsində işlyir.

130-dan çox çap olunmuş elmi əsərin, 12 elmi ixtiranın və iki patentin müəllifidir, 40-dan çox elmi-tədqiqat hesabatının rəhbəri olmuşdur, 25-dən çox beynəlxalq, Ümumittifaq elmi-texniki konfrans və simpoziumun iştirakçısı olmuş və məruzələrlə çıxış etmişdir.

Elmi fəaliyyətinə görə SSRİ Energetika nazirliyinin «Energetika əlaçısı» döş nişanı ilə təltif olunmuşdur.

Əsas elmi işləri ifrat yüksək və ultra yüksək gərginlikli hava xətləri daxil olan mürəkkəb elektroenergetika sistemləri rejimlərinin riyazi modelləşdirilməsi metodlarının inkişafına: elektrik şəbəkələrinin qərarlaşmış rejimlərinin hesab lanması metodlarına, hava xətlərində tac hadisəsinin modelləşdirilməsinə, hava xətlərində tac hadisəsini nəzərə almaqla ifrat yüksək gərginlikli hava xətləri rejimlərinin optimallaşdırılmasına, mürəkkəb elektrik şəbəkələrində elektrik enerjisi itkilərinin hesablanması və strukturunun analizinə həsr olunmuşdur.

Elmi və mühəndis kadrlarının hazırlanması üzrə fəal iş aparır. Onun rəhbərliyi ilə dörd texnika elmləri namizədi yetişdirilmiş və hal-hazırda bir neçə aspiranta elmi rəhbərlik edir.

Ə.B. Balametovun iki monoqrafiyası «Tac hadisəsini nəzərə almaqla elektrik şəbəkələrinin qərarlaşmış rejimlərinin modelləşdirilməsi» və «Mürəkkəb elektrik şəbəkələrində elektrik enerjisi itkilərinin hesablanması» çap olunmuşdur.

Elm sahəsində xidmətlərinə görə 2004-cü ildə akademik Yusif Məmmədəliyev adına medalla təltif olunmuşdur.

Ə.B. Balametovu 60 illik yubileyi münasibətilə təbrik edir, ona gələcək elmi fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

Redaksiya heyəti